pupil also creates a sound basis for inculcating, forcing, self-control, not only eliminating these mistakes, but also in formulating the basics of the essence of the word.

**Redaksiyaya daxil olub:** 15.02.2018

## Kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsində ailənin rolu

**Aytən Mustafayeva**
*Bakı Qızlar Universiteti*
**E-mal:** aytenmustafayeva5@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. Y. Allahverdiyev,
ped.ü.f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** mənəvi tərbiyə, ailə nümunəsi, uşaqlar
**Ключевые слова:** духовное воспитание, образцовая семья, дети
**Key words:** spiritual education, sample family, children

Tərbiyə həmişə bütün cəmiyyətlərdə çətin, mürəkkəb və ziddiyyətli olmuş, indi gün də eynilə davam edir. İnformasiya axınının getdikcə çoxalması, sosial çətinliklər və s. şəraiti Azərbaycanda şagirdlərlə aparılan tərbiyə işini xeyli dərəcədə mürəkkəbləşdirilmişdir. Məhz ona görə də, övlad tərbiyəsi ilə məşğul olan hər bir valideyn mövcud tərbiyə işinin sirrinə yaxından yiyələnməlidir. V.A.Suxomlinski yazırdı ki, müəllimlər arasında tez-tez belə gileylər eşitmək olur: ’’Bizim zamanda adamı, xüsusilə yeniyetmələri tərbiyə etmək çətindir. Ona görə çətindir ki, onlar məktəbdən başqa, digər mənbələrdən də çoxlu biliklər əldə edirlər. Bunların hamısını dərk etmək, həzm etmək lazımdır”. Təcrübə göstərir ki, uşaqları düzgün tərbiyə etməyin yollarını öyrənib, çətinlikləri aradan qaldırmağın ilkin üsulu, valideyninin hər bir uşağının psixi, fiziki və mənəvi inkişafına dərindən bələd olmasını tələb edir. Valideyn uşaqlarının tərbiyəsində o vaxt uğur qazana bilər ki, o övladlarının fərdi xüsusiyyətlərinə yaxından bələd olub, onu düzgün istiqamətləndirsin. Əsl ailə məhəbbəti uşağa tələbkarlıqla yanaşmağı tələb edir. Uşağa verilən tələblərə ailənin ciddi nəzarəti uşaqların imtiyazlı böyüməsinə, tapşırılmış işi düzgün yerinə yetirməsinə şərait yaradır.

M. Qorki demişdir: “Sevməyi toyuq da bacarır”, ən başlıcası bu hissi idarə etməyi bacarmaq, onu ağılla, təmkin və iradə ilə yüksək bir səviyyədə başa çatdırmaqdan ibarətdir. Həkimlərin çox işlətdiyi termini burada demək bizcə yerinə düşər: “Hətta ən şəfa verici dərman xəstə tərəfindən həddindən artıq qəbul edilərsə, bu bədənə mənfi təsir göstərər. Əgər uşaq öz üzərində valideynin həddən artıq məhəbbət və qayğısını hiss edərsə, bu gözəl hisslər, əksəriyyət halda, uşaq qəlbinə zəhər kimi təsir etməyə başlayır. Əsl valideyn məhəbbəti isə uşağa qarşı ciddi və tələbkar olmağı, onun hərəkətlərini qiymətləndirərkən hər hansı bir güzəştə yol verməməyi, obyektiv və ədalətli olmağı tələb edir.”

Valideynin övlada olan məhəbbəti böyüməkdə olan vətəndaşı mənəvi cəhətdən zənginləşdirməli, ona nəinki həyat şənliyi verməyi, həm də onun hisslərində və hərəkətlərində insanlara mərhəmət, qayğıkeşlik, nikbinlik və humanistlik ahəngdarlığı oyatmalı, onda xarakterin ən müsbət keyfiyyətlərini tərbiyə etməlidir. Məhz buna görə də valideynin uşağa olan ağıllı, qayğıkeş, diqqətli və tələbkar məhəbbəti öz körpəsini gələcəyin vətəndaşı kimi görməyə, onun bugünkü tələbində sabahkı günün tələbini, ayrı-ayrı uşaqlıq hərəkətlərində isə yaxşı nəslin xarakterini görməyə istiqamətlənməlidir.

V.A. Suxomlinski göstərirdi ki, uşaq qəlbi insanlar üçün gözəllik və sevinc yaratmaq üçün həssasdır-ancaq gərək bu çağırışın ardınca əmək gəlsin, əgər uşaq hiss edirsə ki, onun yanında insanlar var və o öz hərəkəti ilə onlara sevinc gətirir, o ən kiçik yaşlarından öz arzularını insanların mənafeyinə uyğunlaşdırmağı öyrənər. Bu isə insaniyyət və xeyirxahlıq tərbiyəsində çox vacibdir. O kəs ki, öz arzularının həddini bilmir, heç vaxt yaxşı vətəndaş olmayacaq.

Məhz buna görə də biz bir tərbiyəçi kimi cəmiyyət qarşısında öz məsuliyyətimizi dərk etməliyik, uşaqlarımız üçün isə əxlaq nümunəsi göstərməliyik. Valideyn övlad tərbiyəsində həm də məsuliyyətli olmalıdır. Valideyn dedikdə, ilk anda gözümüz qarşısında ata-ana canlanır. Bu iki şəxs övlad tərbiyəsində müstəsna rol oynayaraq cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Övlad tərbiyəsində ata-ana məsuliyyəti Azərbaycan Respublikasının Konstitusiyasında, bir sıra hüquqi aktlarda, Azərbaycan Respublikasının Təhsil Qanununda öz əksini tapmışdır.

Ana-dünyanın ən ülvi, təmiz və pak bir məxluqudur. Onun pak ülviliyi təkcə dünyaya övlad gətirib, insan nəslini yaşatmasında deyil, ay bətnində min bir əzab və əziyyətlə saxladığı, yuxusuz gecələr keçirməsi hesabına onu xəstəlik və zədələrdən qorumasında da deyil, hər şeydən əvvəl böyük səbr və mətanətlə onda insani hisslər tərbiyə edib, vətən, xalq üçün qeyrətli vətəndaş yetişdirməsindədir. A.S. Makarenko dəfələrlə yazmışdı: "Uşaqları tərbiyə etmək həyatımızın mühüm sahəsidir. Bizim uşaqlar ölkəmizin və dünyanın gələcək vətəndaşlarıdır. Bizim uşaqlar gələcək ata və analardır-onlar özləri də öz uşaqlarını tərbiyə edəcəklər. Bizim uşaqlarımız böyüyüb gözəl vətəndaş, yaxşı ana və ata olmalıdırlar. Lakin iş bununla qurtarmır: bizim uşaqlarımız-bizim qocalığımızdır. Pis tərbiyə bizim gələcək dərdimizdir. Bizim gələcək göz yaşlarımızdır. Bizim başqa adamlar qarşısında, bütün ölkə qarşısında təqsirimizdir".

"Uşaq valideynlərin əxlaqi həyatının güzgüsüdür". V.A.Suxomlinskinin dediyi bu kiçik bir cümlədə nə qədər dərin hörmət və düşündürücü məntiq vardır. V.A.Suxomlinski uşağın ata-ananın güzgüsü olmaını belə səciyyələndirir: "...Günəş bir damla suda əks olunduğu kimi ana və atanın əxlaqi saflığı da uşaqda belə əks olunur. Məktəbin və valideynlərin vəzifəsi hər bir uşağa xoşbəxtlik verməkdir. Xoşbəxtlik həm insanın öz qabiliyyətini aşkar etməsində, əməyi sevməsində, onun yaradıcı olmasında və başqaları üçün gözəllik yaratmasında, həm başqa adamı sevməkdə, seçilməkdə, həm də uşaqları...insan kimi böyütməklə ifadə olunur".

L.N. Tolstoy haqlı olaraq yazırdı: "Tərbiyə yalnız o vaxta qədər mürəkkəb iş olur ki, biz özümüzü tərbiyə etməmiş öz uşaqlarımızı və ya başqa birisini tərbiyə etmək istəyirik. Əgər başa düşsən ki, başqalarını yalnız öz timsalımızda tərbiyə edə bilərik, o zaman tərbiyə haqqındakı məsələ həll edilər və bir məsələ qalar: özümüz necə yaşamalıyıq? Çünki uşaqların tərbiyəsinin elə bir sahəsi yoxdur ki, oraya özümüzü tərbiyə etmək məsələsi daxil olmamış olsun."

Hər bir tərbiyəçi kimi valideynlərin də qarşısında belə bir sual meydana çıxır. Öz müsbət nümunələrini valideyn hansı yollarla uşaqlara təlqin edə bilər?

Bizcə, inandırma üsulu bu yolun ən asan və sadə yoludur. Məlum məsələdir ki, inandırma olmayan yerdə tərbiyə yoxdur. Deməli, bütün müsbət nümunələr inandırma üsulu ilə həyata keçirilir. Azərbaycanın görkəmli pedaqoqu F. Köçərli uşaqların ailədə müsbət nümunələr əsasında tərbiyəsindən danışaraq yazırdı: ..."Ailədə, ailə üzvləri arasında uşaq öz bilik, təhsil mənəviyyəsinin əsasını alır. Burada onun qəlbinə bəyənilmiş xasiyyətlərin, yaxud qəbahətlərin toxumları saçılır, ailədə hökmfərma olan mənəvi məfkurələr yavaş-yavaş onun qəlbinə yol edir. Uşaq bəxtiyar ailədə hökmfərma olan mənəviyyata alışır və onda ailələrin mənəviyyatı əks alır. Uşaq öz ailəsində sədaqət, zəhmətsevərlik, yaxud adamlara məhəbbət,

itaət və ifayi vəzifə görür, özündə bu xasiyyətləri dərk edir. Əgər bunların əksinə olaraq, ailəsində xüdpəsəndlik, tənbəllik, şöhrət düşkünlüyü müşahidə edirsə, özü də nadürüst, xüdpəsənd, tənbəl bir vücud olub, heyəti-ictimaiyyətin nəinki faydasız, bəlkə də lüzur bir fərdi olur. Uşaq hər bir şeyi yaxşı və yaman tövsiyə və nəsihətlə yox, əksər əmsala raqib olmaqla götürür". F. Köçərlinin fikrindən çıxarılan nəticə budur ki, uşağın tərbiyəsinin əsası bütünlükdə ailənin şəxsi və ictimai həyatının düzgün təşkilindən asılıdır.

Bütün ata və analar yaşından, təhsilindən və həyat təcrübəsindən asılı olmayaraq öz övladlarını yaxşı görmək istəyir. Yaxşı övlad hamının idealıdır. Elə bir ata və ana tapmaq mümkün deyil ki, övladına pis gün istəsin. Bəs onda pis uşaqlar haradan əmələ gəlir? Yaxşı uşaq çoxdur, minlərlə, yüz minlərlədir. Ölkəmizin qazandığı nailiyyətlərdə onların ləyaqətli payı vardır. Ancaq təəssüf hissi ilə qeyd etməliyik ki, yaxşı uşaq və gənclərlə yanaşı, pislərinə də az təsadüf olunmur. Burada pis yeniyetmə və gənc ümumi anlayışdır. Pis deyəndə biz kimləri nəzərdə tuturuq? Birinci növbədə narkomaniya, sərxoşluq, toksikomaniya, cinayətkarlıq və əxlaqsızlıq yoluna düşənləri. Beləlǝri azdır, lakin öz bədnam əməlləri ilə hamının diqqətini daha çox cəlb edirlər. Ona görə də uşaqlarda yaxşı adətlər yaratmaq lazımdır. Çünki onların cəmiyyətdə xoşbəxt yaşamaları və mənəvi zənginlikləri üçün yaxşı adətlər çox böyük əhəmiyyət kəsb edir. Buna görə də valideynlər uşaqlarında yaxşı adətlərin tərbiyə edilməsinə xüsusi fikir verməlidirlər. Deməli, ata və analar uşaqlarının intizam tərbiyəsi ilə lap kiçik yaşlarında məşğul olsalar, bu gələcəkdə öz təsir qüvvəsini göstərəcək. Görkəmli filosof və həkim Sokratdan soruşurlar: "Sən nə üçün çox vaxt yeniyetmələrlə həmsöhbət olursan?" O isə cavabında deyir: "Ona görə ki nazik və tər budaqları düzəltmək asandır, təravəti getmiş, qurumuş, üzü bərkimiş ağacı düzəltmək isə mümkün deyildir".

Görkəmli mütəfəkkirlər əxlaqi-didaktik əsərlərində gənclərə əxlaq tərbiyəsi, habelə ailədə uşaqların tərbiyəsi haqqında qiymətli fikirlər söyləmişlər. Onlar mənəvi və əxlaqi tərbiyənin təmizliyinə böyük əhəmiyyət vermişlər. Həmçinin onlar bütün valideynlərə əxlaq tərbiyəsi ilə məşğul olmağı məsləhət bilmişlər. Tanınmış Orta əsr Azərbaycan mütəfəkkirlərindən Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində qeyd etmişdir: "Uşaqlarda pis adətlərə və bəd əməllərə qarşı nifrət hissi yaratmaq lazımdır. Ona görə ki uşaqlar da inkişafın ilk anlarında çoxlu səhvlərə yol verər, qəbahətli iş görər, çox zaman yalançı, paxıl, oğru, xəbərçi, tərs və inadkar olar. Hətta onlar xoşagəlməz iş tutmağa da vadar olar. Sonra isə tənbeh və tərbiyə yaşı keçər". Deməli, uşağın tərbiyəsi ilə körpənin doğulduğu ilk günlərdən başlamaq lazımdır.

Bir gün gənc ana öz uşağını düzgün tərbiyə etməkdən ötrü məşhur pedaqoqlardan birinə müraciət etmişdir. Pedaqoq gənc anadan uşağın yaşını soruşur və körpənin üç günlük olduğunu öyrənir. Bu zaman pedaqoq başını bulayaraq: "Siz artıq geçikmisiniz. Gərək uşağın tərbiyəsi ilə anadan olduğu saatdan başlayardınız!" – deyir. Dərin məna kəsb edən bu sözlərdə böyük həqiqət vardır. Çünki dünyaya təzəcə göz açan körpə görüb eşitdiklərini öyrənir. Sonra isə ətrafında gördüyü adamların hərəkətlərini təqlid edir. Beləliklə də, uşaqlarda ailə tərbiyəsinin xüsusiyyətlərinə uyğun əxlaqi keyfiyyətlərin əsası qoyulur. Uşaq böyüyüb ailə mühitindən çıxdıqdan sonra ilk tərbiyənin təsiri öz qüvvəsini saxlayır. Ona görə də valideynlər dərindən dərk etməlidirlər ki, uşağın düzgün tərbiyəsinin əsası ailə tərbiyəsindən başlayır.

Valideynin şəxsi nümunəsi tərbiyə işində son dərəcə böyük rol oynayır. Məhz ona görə də uşaqlar ata və ana timsalında sosial-təcrübəni mənimsəyirlər. Gənc ata və ana isə özlərinin zahiri görkəmi, dünyagörüşü və insanlara münasibətləri ilə gənc nəslə mühüm təsir göstərirlər. Yəni uşağın yaşı nə qədər azdırsa, onda valideynin şəxsi nümunəsi daha böyük əhəmiyyət daşıyır.

K. Marks qeyd etmişdir: "Tərbiyə edənin özünü tərbiyə etmək lazımdır". Buradan nəticə

çıxarmaq çətin deyildir. Yəni tərbiyə həm də özünü düzgün tərbiyə etməsi üçün özünütərbiyə ilə ardıcıl məşğul olmalıdır. Çünki əks halda özü də bilmədən nöqsanlı şəxsi münasibəti ilə uşağa mənfi təsir edər. Ailədə valideyn nüfuzu da önəmli yer tutur. Valideyn nüfuzu müxtəlif amillərin təsiri ilə formalaşır. Ailədə valideyn nüfuzunun bərqərar olmasında ata həlledici rol oynayır. Uşaqlar gələcəkdə valideyn nüfuzunu birinci növbədə ata və ana vasitəsilə mənimsəyirlər. Eləcə də ailədə ata və ananın vətəndaşlıq simasının rolu ayrıca əhəmiyyət kəsb edir. Buna görə də ailədə valideynin sözü ilə işinin vəhdət təşkil etməsi ata və ana nüfuzunun başlıca şərtidir. Valideynlərin şəxsi keyfiyyətləri, həyat təcrübəsi, bilik və bacarıqları da bu sahədə az rol oynamır. Elə buna görə də valideynlərin özü ilk növbədə, tərbiyənin məqsədini aydın təsəvvür etməlidir. A.C. Makarenko valideynlərə müraciətlə demişdir: "Siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu, yaxud qızınızı yalnız öz sevinciniz üçün tərbiyə etmirsiniz. Sizin ailənizdə və sizin rəhbərliyiniz altında gələcək vətəndaş, gələcək xadim və gələcək mübariz böyüyür. Siz pis adam tərbiyə etsəniz, bunun bəlasını yalnız özünüz deyil, bir çox adamlar və bütün ölkə çəkəcəkdir". O demək istəyir ki, uşağa olan sevgi dərman kimi müəyyən norma tələb edir. Bu norma nə az nə də çox olmamalıdır. Çünki bu dərmanı artıq qəbul edəndə insan zəhərlənir. Eləcə də uşaq da bu cürdür. Onu həddən artıq əzizləsən və onun istədiyini yerinə yetirsən onda belə sevgi uşağı korlayır.

**Məqalənin aktuallığı.** Tərbiyə işi həmişə cəmiyyətdə çətin, mürəkkəb və ziddiyyətli olmuşdur. İnformasiya axınının çoxaldığı bir şəraitdə bu, Azərbaycanda şagirdlərlə aparılan tərbiyə işini xeyli dərəcədə mürəkkəbləşdirilmişdir. Bu baxımdan belə bir mövzuya müraciət olunması aktual hesab edilməlidir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ailənin kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsinə təsiri ilə bağlı xarici ölkə pedaqoqlarının kifayət qədər fikirlərinə istinad edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. S. Quliyev. Ailə pedaqogikasının mühüm problemləri. Bakı: Nurlan, 2005.
2. Ə. Paşayev, F. Rüstəmov. Pedaqogika. Bakı, 2007.
3. A. Həsənov. Kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində Azərbaycan ədəbiyyatındakı mənəvi dəyərlərdən istifadə pedaqoji qanunauyğunluqdur. Bakı, 1996.

**А. Мустафаева**

## Роль семьи в моральном воспитании школьников начальных в классах
## Резюме

Детям с малых лет доверия значения в понимании и лет уровней за Бога, осознать, которому надо помочь. Нашим детям жизнь, муравья, бабочки, люди, лес, горы, ручей, любить, покажем. Ничего напрасно не возник, причину покорности учить, самая большая любовь владельца снискать должны научиться.

**A. Mustafayeva**